Naxışlarda, ilmələrdə yaşayan yurd

Azərbaycan xalq-tətbiqi sənəti və onun bir qolu olan xalçaçılıq milli mədəniyyət tariximizdə özünəməxsus yer tutur. El sənətinin ən geniş yayılmış növü Azərbaycan xalqının məişətində özünə möhkəm yer tutmuşdur. Xalça sənəti xalqın rəmzinə çevrilmişdir. Müxtəlif naxış elementləri və təsvirlərlə bəzədilən xovlu və xovsuz xalçalar dəyələrin, çadırların, alaçıqların, habelə yaşayış evlərinin və digər binaların divar bəzəklərində, döşənməsində istifadə edilir, eyni zamanda yüksək estetik əhəmiyyət kəsb edir. Arxeoloji materiallara və yazılı mənbələrə əsasən Azərbaycanda xalçaçılıqla hələ Tunc dövründən məşğul olmuşlar.

Azərbaycan xalçaları həm coğrafi mövqeyinə, həm də naxış, kompozisiya, rəng həlli və tarixi xüsusiyyətlərinə görə şərti olaraq 7 xalçaçılıq məktəbinə bölünür.

Qərbi Azərbaycan türklərin qədim yaşayış məskəni olub. Həmin ərazilərdə yaşayan soydaşlarımız müxtəlif dövrlərdə digər peşələrlə yanaşı, xalçaçılıq sənətinə də böyük maraq göstərmiş, qadınlar "Şirvan", "Şəki", "Qarabağ", "Gəncə", "İrəvan" və digər adlar altında müxtəlif çeşnili xalılar toxumuş, ilmələrlə əsl sənət lövhələri yaratmışlar.

Qərbi Azərbaycandakı soydaşlarımız erməni vandalları tərəfindən qırğınlara məruz qalanda haylar azərbaycanlıların ev-eşiklərini talamış, min bir naxışlı xalçaları ələ keçirmiş, bu sənət nümunələrini özününküləşdirmiş, xarici ölkələrdə keçirilən sərgilərdə heç nədən çəkinmədən nümayiş etdiriblər.

XX əsrin əvvəlində Almaniyanın böyük şəhərlərindən birində xalça bazarı fəaliyyət göstərirmiş. Haradansa iki azərbaycanlının yolu bu bazara düşür. Baxırlar ki, Tatevos adlı bir erməni zövqlə hazırlanmış xalçalar satır, qəribədir ki, haylar bilirlər ki, onu azərbaycanlılar toxuyub. Xülasə, azərbaycanlılar həmin xalçadan ikisini alırlar. Ermənini suala tuturlar ki, bu türk xalçasını siz niyə satırsınız, bəyəm sizin millətin ilmədən, toxumaqdan başı çıxır?! Məsələnin nə yerdə olduğunu görən ermənilər hay xalçası adı ilə bazara çıxardıqları xalçaları tez yığışdırıb aradan çıxırlar.

XIX-XX əsrlərdə Qərbi Azərbaycanın Göyçə mahalında hazırlanan xalçalar kompozisiyası, bədii xüsusiyyətləri, toxunuşuna görə digər xalçalardan fərqlənirdi. 1988-ci ildə Ermənistanda yaşayan Azərbaycan türkləri deportasiyaya məruz qaldılar. Həmin dövrədək Basarkeçər rayonunun Qamışlı, Kərkibaş, Çaxırlı, Aşağı Şorca, Yuxarı Şorca, Daşkənd, Nərimanlı, Böyük Məzrə və digər kəndlərində müxtəlif çeşidli xalçalar toxunurdu. Azərbaycanlı qadınların zövqlə hazırladıqları əlvan xalçalar ermənilərə qıcıqlandırırdı.

Qərbi azərbaycanlılar 37 ildir ki, ata-baba torpaqlarından qovulmuşlar. Buna baxmayaraq, onların çoxu bu gün yaşadıqları ərazilərdə xalçaçılıq peşəsini davam etdirir, ilmələrlə yaradılan lövhələrdə Göyçə gölü, Çəmbərək, Lori-Pəmbək mahalı, İrəvan, Amasiya, Dərələyəz kimi tarixi Azərbaycan ərazilərini, onun möcüzəli, mənzərəli yerlərini çox ustalıqla təsvir edirlər. Onlar əmindirlər ki, çox tezliklə Qərbi Azərbaycana dönəcək, xalçaçılıq sənətini türk diyarında yenidən davam etdirəcək, xalçalarda Aşıq Ələsgərin, Aşıq Alının portretlərini yaradacaqlar...

Yaxın vaxtlarda əslən Qərbi Azərbaycanın Göyçə mahalından olan mahir xalçaçı Süsən Qurbanova haqqında xoş xəbər gəldi. Məlum oldu ki, bu gənc Vətən həsrətli xanım xalçaçılıq sənətini uğurla davam etdirir, xalçaçılıqda yeni-yeni kompozisiyalar yaradır, naxış elementlərini meydana gətirir, romantik sujetlərə geniş yer verir.

Süsən xanımın incə əlləri ilə, yeni ornament və çeşnilər əsasında yaxınlarda "Qərbi Azərbaycan ilmələri" adlı xalça ərsəyə gəlmişdir. Bu əlvan xalça bizi Qərbi Azərbaycana aparacaq, yolumuza işıq salacaq parlaq ulduzdur. O, ilmələrlə "söhbət edərkən" gözlərimiz qarşısında qəribsəmiş yurd yerləri canlanır...

Q.TƏYYAROĞLU,
"Respublika".

Respublika .- 2025.- 15 may(№99).- S.8.